Xəbər

# Latviyada "Şuşa ili"nə həsr olunmuş təntənəli konsert təşkil olunub

**Ölkəmizin Latviyadakı səfirliyi tərəfindən noyabrın 9-da Riqada Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi və Latviya Milli Kitabxanası ilə birgə əməkdaşlıq çərçivəsində Zəfər Gününə və "Şuşa ili"nə həsr olunmuş təntənəli konsert təşkil olunub. Tədbir Latviyanın ən müasir və tanınmış mədəniyyət ocaqlarından biri, Latviyanın çağdaş memarlıq nümunələrindən sayılan Latviya Milli Kitabxanasında keçirilib.**

Latviyanın sabiq prezidenti Andris Berzinş, Latviya dövlət qurumlarının rəsmiləri, bu ölkədə akkreditə olunan diplomatik korpusun, akademik, incəsənət, ictimai dairələrin nümayəndələri, Latviyada fəaliyyət göstərən ölkəmizin aparıcı diaspora təşkilatlarının üzvləri, həmçinin tələbələr tədbirdə iştirak ediblər.




Tədbirdə çıxış edən Azərbaycanın Latviyadakı səfiri Elnur Sultanov vurğulayıb ki, Azərbaycan xalqı Zəfər Gününü Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu tərəfindən ərazilərimizin Ermənistanın 30 illik hərbi işğalından azad edilməsi, ədalətin və beynəlxalq hüququn bərqərar olması günü kimi hər il noyabrın 8-də qürurla qeyd edir. Səfir bildirib ki, Ermənistanın kapitulyasiyasına aparan 2020-ci il noyabrın 8-də Şuşanın işğaldan azad edilməsi xalqımızın və şanlı ordumuzun qəhrəmanlıq ruhunun təntənəsinə çevrilib. Bildirib ki, torpaqlarımızın azadlığı uğrunda canlarından keçən bütün şəhidlərimizin əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq.

Uğurla inkişaf edən Azərbaycan-Latviya münasibətlərinə toxunan diplomat keçirilən mədəni tədbirlərin iki ölkə arasında sıx dostluq əlaqələrini daha da gücləndirdiyini nəzərə çatdırıb.

Səfir Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə 2022-ci ilin "Şuşa ili" elan olunduğunu, bu il Şuşa şəhərinin salınmasından 270 il keçdiyini və bugünkü tədbirin həm də "Şuşa ili"nə həsr olunduğunu deyib.

Tədbirdə Azərbaycanın Əməkdar artistləri - tarzən Sahib Paşazadə, vokalçı İlham Nəzərov və bir sıra respublika və beynəlxalq müsabiqələr laureatı, pianoçu Səidə Tağızadə Azərbaycan və Latviya bəstəkarlarının əsərlərini uğurla ifa ediblər.

*"Azərbaycan"*

Azərbaycan.- 2022.- 13 noyabr.- S.9.